Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

**EU4Environment**
Green Economy in Eastern Partner Countries

# I Növ Ekoloji etiketləri
## necə əldə etməli

*İstehsalçılar üçün Məlumat*



Sizin nəzərdə tutduğunuz bazar üçün mövcud olan I NÖV Ekoloji etiketləri **ARAŞDIRIN.**

**İnvestisiya xətti**

Tələblərə cavab vermək üçün **məhsullarınızı uyğunlaşdırın**

**Müraciətinizi təqdim edin**

**Məhsullarınızı reklam edin** nəticələrdən bəhrələnin

## Avropa İttifaqının (Aİ) Ekoloji etiketlərini **necə əldə etməli** və məhsullarınızı Aİ-na necə **ixrac etməli**

Aİ Ekoloji etiketi Avropa Komissiyasının və Aİ üzv dövlətlərinin idarə etdiyi I Növ mükafat sxemidir. Etiket 11 məhsul qrupu üzrə mövcuddur – təmizlik, geyim və tekstil, üzlüklər, peşəkar yardım olmadan bir işin görülməsi, elektron avadanlıq, mebel və döşək, bağçılıq, tətil məkanları, sürtkü materialları, kağız, şəxsi və heyvanlara gigiyenik qulluq məhsulları – daha çoxu isə inkişaf etməkdədir.

EU Ecolabel
www.ecolabel.eu

## Aİ Ekoloji etiketi əldə etmək üçün **yeddi addım**



1. Aİ-da və ya Avropa İqtisadi Məkanında məhsulunuzun bazara çıxacağı ölkədə Səlahiyyətli Qurumla – Aİ Ekoloji etiketi üçün müraciət və lisenziyalar üzrə cavabdeh olan müstəqil təşkilatla əlaqə saxlayın. Səlahiyyətli Qurum növbəti addımlara dair göstəriş və təlimat verəcək.
2. Öz mal və ya xidmətlərinizi Aİ-nın onlayn Ekoloji etiket kataloqunda (ECAT), yaxud Aİ-nın Ekoloji etiket turist yerləşdirmə kataloqunda qeydiyyatdan keçirin.
3. Öz ərizə toplunuzu elə tərtib edin ki, Səlahiyyətli Qurum sizin meyarlara uyğun gəldiyinizi qiymətləndirə bilsin.
4. Ərizənizi təqdim edin və ərizə və illik haqlarını ödəyin.
5. Ərizənizin qiymətləndirilməsini gözləyin.
6. Ərizənizin təsdiqini və Aİ Ekoloj etiket lisenziyasını alın.
7. Öz mal və ya xidmətləriniz haqqında məlumatı Aİ Ekoloji etiketi ilə paylaşın və yaxud reklam edin.



## Aİ Ekoloji etiketinin xərcləri[1]

Aİ Ekoloji etiketlərindən istifadənin xərci məkandan və sizin müəssisənizin ölçüsündən asılıdır. Xidmət haqları ərizə haqqına (200 avrodan 2000 avroya qədər), illik haqlara (mikro, kiçik və orta ölçülü müəssisələr və inkişaf etməkdə olan ölkələrdə ) və təftiş (yoxlama) haqlarına bölünür. Ekoloji etiket meyarlarını ödəmək üçün məhsulları buna uyğunlaşdırmağın və lisenziyanı dəyişdirmək və ya müddətini uzatmağın əlavə xərcləri yarana bilər.

Design: Zoï Environment Network

[1] **EU Ecolabel - How to apply.** European Commission, n.d. https://environment.ec.europa.eu/topics/circular-economy/eu-ecolabel-home/how-apply_en

www.eu4environment.org

© 2022 UNEP. Bütün hüquqlar qorunur. Şərtlərə əsasən Avropa İttifaqı tərəfindən dəstəklənir.

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP